# Ermənistan sülh sazişindən yayınarsa...

## Vaşinqtonda imzalanan sənəd şübhə altına qoyulsa, bu ölkə ciddi çətinliklərlə üzləşəcək

Cənubi Qafqazda yeni reallıqların formalaşması regionun gələcəyi üçün mühüm perspektivlər açır. ABŞ-də keçirilən tarixi görüşdə Azərbaycan və Ermənistan arasında sülhə doğru atılan addımlar, xüsusilə Zəngəzur dəhlizinin açılması barədə razılaşmalar yalnız iqtisadi deyil, həm də siyasi qələbə kimi qiymətləndirilir. Artıq hər iki tərəfdə hesab edilir ki, bölgədə uzun müddətdir gözlənilən sülh yaxınlaşır. Avqustun 8-də Vaşinqtonda baş verən hadisələr iki ölkə arasındakı gərginliyin sonu oldu.

Prezident İlham Əliyevin Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalına müsahibəsində söylədiyi kimi, Ağ Evdə paraflanmış sənəd Azərbaycan-Ermənistan münasibətlərinin dövlətlərarası çərçivədə necə qurulmalı olduğu barədə ölkəmizin baxışına əsaslanır.

Bu sənəd iki dövlət arasında uzunmüddətli hərbi münaqişəyə son qoydu, diplomatik münasibətlərin qurulmasına və davamlı sülhə əsaslanan əməkdaşlığın inkişafına yol açdı. Azərbaycan və Ermənistan arasında unikal sazişin imzalanması iki ölkənin liderlərini tam siyasi iradə və strateji uzaqgörənlik nümayiş etdirməyə inandıra bilən ABŞ Prezidenti Donald Trampın enerjili və səmərəli vasitəçilik missiyası sayəsində mümkün oldu.

Bunadək uzunmüddətli danışıqlar aparılsa da, heç bir sənəd imzalanmamış, vasitəçilik etmiş tərəflərin səyləri boşa çıxmışdı. Nəhayət, müharibənin başa çatmasından 5 il sonra Vaşinqtonda Prezident Donald Trampın və onun komandasının böyük dəstəyi ilə sülh sazişi paraflandı.

"Əl-Ərəbiyyə" telekanalına müsahibəsində İlham Əliyev həmçinin Vaşinqton Bəyannaməsini münaqişənin, müharibənin sonu kimi qiymətləndirərək deyib ki, sülh sazişinin imzalanmamasının bir xüsusi səbəbi var - Ermənistan konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünü hələ də şübhə altına alan müddəa mövcuddur. Əgər həmin müddəaya dəyişiklik edilməcəksə, yəni Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialar Ermənistan konstitusiyasından çıxarılacaqsa, sülh sazişi də imzalanacaq. Bu da əlbəttə ki, ilk növbədə Cənubi Qafqaz regionu, həm də daha geniş mənada Mərkəzi Asiya və Yaxın Şərq üçün tamamilə yeni imkanlar açacaq.

Digər bir məsələ isə odur ki, bu ölkədə keçiriləcək seçkilərdə hakimiyyət dəyişikliyi olduğu təqdirdə Ermənistan sülhdən yayına bilərmi?!

Əlbəttə ki, bunu zaman göstərəcək. Prezident İlham Əliyev bu məsələyə də aydınlıq gətirərək vurğulayıb ki, əgər Ermənistanın hər hansı gələcək hökuməti hakimiyyətə gəldiyi vaxtdan asılı olmayaraq, Vaşinqtonda imzalanan sənədi şübhə altına qoyarsa, Ermənistan ciddi çətinliklərlə üzləşəcək. Çünki regiondakı güc balansı hər baxımdan tamamilə Azərbaycanın xeyrinədir. Bu, hər kəsə aydındır. Əgər Ermənistan bir daha Azərbaycanın ərazi bütövlüyünü şübhə altına qoysa, adekvat cavab veriləcək.

Dövlətimizin başçısı bir daha xatırladıb ki, Vaşinqtonda imzalanan sənədin əhəmiyyəti ondan ibarətdir ki, hər iki tərəf bir-birinin ərazi bütövlüyünü tanıyır və gələcək təmasların beynəlxalq hüququn bu fundamental tezisi əsasında planlaşdıracaq: "Əgər onlar bizim ərazi bütövlüyümüzü tanımaqdan imtina etsələr, biz də onların ərazi bütövlüyünü tanımaqdan imtina edəcəyik. Burada kim qazanacaq, kim uduzacaq? Məncə, bu, ritorik sualdır. Ona görə hesab edirəm ki, Ermənistanın istənilən gələcək hökumətində kifayət qədər müdriklik, ağlabatan yanaşma olacaq ki, Vaşinqtonda razılaşdığımızı şübhə altına almasın. Bir daha qeyd edirəm ki, bu, iki dövlət arasında razılaşmadır. Bu, Paşinyan ilə mənim razılaşmamız deyil".

İlham Əliyev bir daha Ermənistanda keçiriləcək seçkilərə toxunaraq deyib ki, güclü xarici müdaxilə olarsa, bu, razılaşmaları poza bilər. Amma bu, Ermənistanın özü üçün çox zərərli olar, çünki Vaşinqtonda sənədlərin kim tərəfindən imzalanmasından asılı olmayaraq, onlar Ermənistanın adından Ermənistan lideri tərəfindən imzalanıb. Əgər orada hər hansı dəyişiklik baş verərsə və imzalanmış sənəddən geri addım atılarsa, bu, Ermənistan ilə ABŞ arasındakı münasibətləri ciddi şəkildə pisləşdirər: "Bu, yalnız ABŞ-yə aid deyil, beynəlxalq ictimaiyyət, Avropa İttifaqı, Türkiyə və ərəb ölkələrindəki dostlarımız da bu prosesi dəstəklədilər.

Beləliklə, bütün beynəlxalq ictimaiyyət bu hadisəni müsbət qarşıladı və razılaşmanı pozmaq bütün dünyaya qarşı çıxmaq deməkdir. Onlar bundan nə qazanacaqlar? Vaşinqtonda imzalanan sənəd Ermənistan üçün sülhə və sabit inkişafa zəmanətdir".

Bu fikirləri ilə İlham Əliyev bir daha məğlub Ermənistana, hətta gələcəkdə hakimiyyətə sahiblənə biləcək qüvvələrə də mesaj göndərib. Azərbaycan Prezidenti bir daha bəyan edib ki, Ermənistanda hansı qüvvələrin hakimiyyətə gəlməsindən asılı olmayaraq Vaşinqton Bəyannaməsinə kölgə salınmamalıdır. Əks təqdirdə Ermənistan yenə də hər şeydən təcrid olunmuş vəziyyətdə qalacaq. Əgər Hayastan iqtisadi tənəzzüldən qurtulub nəqliyyat-tranzit mərkəzinə çevrilmək istəyirsə, iqtisadiyyatının inkişaf etməsini arzulayırsa, Azərbaycanla sülh sazişini mütləq şəkildə imzalamalıdır.

Avqustun 28-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Maqdalena Qrononu qəbul edən Prezident İlham Əliyev bir daha Vaşinqton görüşünə toxunaraq deyib ki, əldə olunan nəticələr tarixi əhəmiyyət kəsb edir və bu prosesdə Amerika Birləşmiş Ştatlarının rolu xüsusi vurğulanmalıdır. ABŞ-nin vasitəçiliyi ilə imzalanmış Vaşinqton Bəyannaməsi, sülh sazişinin paraflanması və Minsk qrupunun ləğv edilməsi ilə bağlı Azərbaycan və Ermənistanın birgə müraciəti sülh prosesində atılan mühüm addımlardır.

Proseslərin bu cür davam etməsi, hər iki tərəfdə razılaşmalara sadiqlik onu deməyə əsas verir ki, gələn il tərəflər arasında sülh sazişinin imzalanması reallaşa bilər. Əgər bu baş verərsə, Cənubi Qafqazda yeni tarix, yeni era başlayacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 29 avqust (№182).- S.7.